**PRESS-RELİZ**

# Elmin İnkişafı Fondunun nümayəndə heyəti “HORİZON-2020” Proqramı çərçivəsində Afina şəhərində keçirilən iclasda iştirak edib

Elmin İnkişafı Fondunun icraçı direktoru Elçin Babayevin başçılıq etdiyi nümayəndə heyəti 2016-cı il 26-27 sentyabr tarixində Avropa İttifaqının tədqiqat və innovasiyalar üzrə “HORİZON-2020” Proqramı çərçivəsində Şərq Tərəfdaşlığı ölkələrinin elm, texnologiya və innovasiyalar sahəsində fəaliyyətini əlaqələndirən “EaP PLUS” layihəsi üzrə Afina şəhərində keçirilmiş Təməl iclasında Azərbaycandan olan koordinator qismində iştirak edib. Elmin İnkişafı Fondu hal-hazırda “HORİZON-2020” Proqramının “EaP PLUS” layihəsində (692471) qurum kimi iştirakçıdır. “Şərq Tərəfdaşlığı” Polşa və İsveçin Avropa Birliyinin qonşuluq siyasəti çərçivəsində MDB ölkələri ilə münasibətlərinin yaxşılaşdırılmasına yönəldilmiş təşəbbüsüdür. İclas müddətində elmi diaspora, ekspertlər bazasının təkmilləşdirilməsi və onların potensialından müxtəlif ölkələrin müsabiqələri üçün istifadə, vebinarların keçirilməsi, elm-biznes münasibətləri, innovasiya və elmi-iqtisadi klasterlər, layihələrin idarə olunması və maliyyələşdirilməsi, Avropa Birliyi ilə Şərq Tərəfdaşlığı Ölkələri arasında Elm-Texnologiya-İnnovasiya sahəsində əməkdaşlıq proqramı üzrə məsləhətləşmələr aparılıb. Adıçəkilən iclasda hər bir ölkənin təcrübəsini əks etdirən çıxışlar dinlənilib, ümumi platforma müzakirə edilib, Elmin İnkişafı Fondu tərəfindən də təklif və tövsiyələr verilib. Yunanıstanda fəaliyyət göstərən Regional və Beynəlxalq Elm-Texnologiya-İnnovasiya Tədqiqatları və Dəstək Mərkəzinin (CeRİSS) icraçı direktoru və EaP PLUS layihəsinin koordinatoru Dr. George Bonas və bu Mərkəzin əməkdaşı Yannis Kechagiaras ilə bilateral müzakirələr aparılıb. Elmin İnkişafı Fondunun və CeRİSS-in birgə təşkilatçılığı ilə Avropa Tədqiqat Zonaları Şəbəkəsinin (ERA-NET) tematik proqramları üzrə elm siyasəti sahəsində tanınmış ekspertlərin iştirakı ilə Bakı şəhərində 2016-cı il 13-14 oktyabr tarixində keçiriləcək yüksək səviyyəli iclasına (Workshop for the Participation of Non-EU Black Sea and EaP Countries in Thematic COFUND ERANETs & JPIs) hazırlıq işləri müzakirə edilib. Tədbirdə 10 xarici ölkədən (Avstriya, Yunanıstan, İtaliya, Hollandiya, Rusiya, Ukrayna, Gürcüstan, Moldova, Belarus və Almaniya) nümayəndələr iştirak edəcək.

Ezamiyyət zamanı tədbirlərdə iştirakla yanaşı, Avropa Komissiyasının Tədqiqat və İnnovasiyalar üzrə Baş Direktorluğunun (DG-R&I), Belçikanın “EBN İnnovation Network” qurumunun, Portuqaliya İnnovasiya Cəmiyyətinin (Sociedade Portuguesa de Inovação), Almaniya Aero-kosmik Mərkəzinin (DLR), Avstriyada fəaliyyət göstərən Sosial İnnovasiyalar Mərkəzinin (ZSİ), Polşa Elmlər Akademiyasının, Şota Rustaveli adına Gürcüstan Milli Elm Fondunun, Yunanıstanda fəaliyyət göstərən Regional və Beynəlxalq Elm-Texnologiya-

İnnovasiya Tədqiqatları və Dəstək Mərkəzinin, Yunanıstanda fəaliyyət göstərən Qara Dəniz Hövzəsi Tədqiqatları üzrə Beynəlxalq Mərkəzinin məsul şəxsləri ilə bir sıra qısamüddətli görüşlər də keçirilib, əməkdaşlıq imkanları müzakirə olunub.

**Elmin İnkişafı Fondunun mətbuat xidməti**